**UOT 94(479.24)**
https://doi.org/10.59849/2218-4783.2026.2.81

# XX ƏSRİN SONLARINDA NAXÇIVANIN SOSİAL-İQTİSADİ İNKİŞAF MODELİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEV AMİLİ

# THE FACTOR OF HEYDAR ALIYEV IN THE FORMATION OF THE SOCIO-ECONOMIC DEVELOPMENT MODEL OF NAKHCHIVAN AT THE END OF THE 20TH CENTURY

**Səfər ƏLİYEV***

**XÜLASƏ**

XX əsrin sonlarında Ermənistanın Azərbaycanın Tarixi torpaqlarını işğal etməsi nəticəsində Naxçıvanla Azərbaycan arasında nəqliyyat vasitələrinin dayandırılmasına gətirib çıxarmışdı. Buzaman Naxçıvanda vəziyyət olduqca mürəkkəbləşmiş və sosial-iqtisadi münasibətlər bir qədər zəifləmişdi. Dəmir yolunun işləməməsi nəticəsində muxtar respublikanın sənaye, kənd təsərrüfatı, inşaat materialları ilə təmin edilmədiyindən onların (əksəriyyətinin) fəaliyyəti tamamilə dayanmışdı. 1990-cı ildə 1985-ci ilə nisbətən dəmir-beton məmulatı istehsalı, xam ipək istehsalı, duz istehsalı azalmışdır. Nəqliyyat blokadası kənd təsərrüfatı məhsullarının istehsalında və daşınmasında da ciddi problemlər yaratmışdı. Heyvandarlıqda 34 faiz kənd təsərrüfatında məcmu məhsul 25.5 sənaye istehsalı 26.6 faiz azalmışdı. Qışın sərt keçməsi səbəbi ilə yanacağa olan tələbat ödəmədiyi üçün əhali nadir olan ağacları kəsərək öz tələbatlarını qarşılamaq məcburiyyətində qalmışdır. Heydər Əliyev 3 sentyabr 1991-ci ildə Ali Məclisin sədri seçildikdən sonra muxtar respublikanı sosial-iqtisadi böhrandan çıxarmaq üçün ciddi tədbirlər görməyə başladı. Heydər Əliyevin müdrik siyasəti nəticəsində Naxçıvan erməni təcavüzündən qurtulmuş və asayiş bərpa edilmişdir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə Naxçıvanda sosial-iqtisadi inkişafın möhkəm təməli formalaşdırılmışdır.

**Açar sözlər:** *Naxçıvan, blokada, sosial-iqtisadi vəziyyət, Heydər Əliyev, beynəlxalq əlaqələr.*

**ABSTRACT**

At the end of the twentieth century, the occupation of Azerbaijani lands by Armenia led to the disruption of transport links between Nakhchivan and the rest of Azerbaijan. At that time, the situation in Nakhchivan became quite complicated and the socio-economic situation deteriorated significantly. The transport blockade also created serious problems in the production and transportation of agricultural products. Following the suspension of railway services, the Autonomous Republic faced severe shortages of industrial, agricultural, and construction materials, forcing many enterprises to cease operations. In 1990, compared to 1985, the production of reinforced concrete products, the production of raw silk, salt production decreased. Animal husbandry decreased by 34 percent, rural economy-by 25.5 percent, industrial production-by 26.6 percent. Because of the severe winter and acute fuel shortages, the population was forced to cut down rare trees to meet its heating needs. After Heydar Aliyev was elected chairman of the Supreme Assembly on September 3, 1991, he began to take serious measures to bring the autonomous republic out of the socio-economic crisis. As a result of Heydar Aliyev's wise policy, Nakhchivan was freed from Armenian aggression and order was restored. Under the leadership of National Leader Heydar Aliyev, a solid institutional and strategic foundation was laid for the socio-economic development of Nakhchivan.

**Keywords:** *Nakhchivan, blockade, socio-economic situation, Haydar Aliyev, international relations.*

## GİRİŞ

1990-cı illərin əvvəlləri Naxçıvan Muxtar Respublikası üçün dərin sosial-iqtisadi və siyasi böhran dövrü kimi səciyyələnir. Regionun nəqliyyat və iqtisadi blokadaya məruz qalması, ənənəvi təsər-

*AMEA Naxçıvan Bölməsi, e-mail: sefer.alv085@gmail.com
ORCID: 0000-00024284-6173

rüfat əlaqələrinin pozulması və istehsalın kəskin azalması əhalinin həyat səviyyəsinə ciddi mənfi təsir göstərmişdir. Bu şəraitdə muxtar respublikanın mövcud vəziyyətdən çıxarılması üçün tədbirlərin həyata keçirilməsi zərurəti yaranmışdır. Məhz belə bir mürəkkəb dövrdə həyata keçirilən siyasi qərarlar, iqtisadi islahatlar və beynəlxalq əlaqələrin qurulması Naxçıvanın sosial-iqtisadi sabitliyinin bərpasında mühüm rol oynamışdır.

## 1990-CI İLLƏRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVANDA ÜMUMİ SOSİAL-İQTİSADİ VƏZİYYƏT

1990-cı ilin əvvəllərində Naxçıvanda vəziyyət kəskin şəkildə dəyişmişdi. Sosial-iqtisadi durum gündən-günə ağırlaşır, əhalinin gündəlik tələbatlarını ödəmək imkanları getdikcə azalırdı. Bir yandan Ermənistan tərəfindən iqtisadi və nəqliyyat blokadasının yaratdığı obyektiv çətinliklər, digər tərəfdən keçmiş iqtisadi münasibətlərin iflasa uğraması əhalinin həyat səviyyəsinin daha da pisləşməsinə gətirib çıxarmışdı. Dəmir yolunun işləməməsi nəticəsində muxtar respublikanın sənaye, kənd təsərrüfatı, tikinti müəssisələri və s. lazım olan xammalla, komplektləşdirici avadanlıqlarla, inşaat materialları ilə təmin edilmədiyindən onların əksəriyyətinin fəaliyyəti tamamilə dayanmışdı. 80-ci illərin ortalarında sənaye müəssisəsinin altısının dayandırılması Naxçıvanda vəziyyəti bir qədər də ağırlaşdırırdı. (Naxçıvan Muxtar Respublikasında 1990-cı ildə 52 sənaye müəssisəsi fəaliyyət göstərirdi) [Hacıyev, 2020: 13]. Sənaye istehsalında 1989-1991-ci illərdə kəskin şəkildə azalma müşahidə edilmişdir. Heyvandarlıqda 34 faiz kənd təsərrüfatında məcmu məhsul 25.5 sənaye istehsalı 26.6 faiz azalmışdı. Quşların sayı 372 min, qara malın sayı 10.9 min davarların sayı 31.1 min azalmışdı. Bu göstəricidə milli gəlir 5 dəfə aşağı düşmüşdü [Hacıyev, 2020: 12-13]. Ümumi məhsulun həcmi 1990-cı ildə 1985-ci ilə nisbətən 92,6 faiz, 1989-cu ilə nisbətən isə 95,9 faiz təşkil etmişdir. 1990-cı ildə 1985-ci ilə nisbətən dəmir-beton məmulatı istehsalı 47,7 min kubmetrdən 40 min kubmetrə (tikintisi dayandırılmış), xam ipək ipliyi istehsalı 107 tondan 83 tona, duz istehsalı 118 min tondan 99 min tonadək azalmışdır. Buzaman işsizlik xeyli artmışdır. Naxçıvana ərazi iddiaları və sərhədlərdə hərbi toqquşmalar yaratması muxtar respublikanın həyatına ciddi mənfi təsir göstərməkdə idi [Naxçıvan MR Ali Məclisi, 2019: 55]. Avtomobil yollarının və Azərbaycan dəmir yollarının (Qarçevan-Mehri) fəaliyyətinin dayandırılması Naxçıvanda vəziyyəti bir qədər də ağırlaşdırdı. Buzaman Naxçıvan Azərbaycanın digər rayonları ilə yanaşı İttifaq dövlətləri ilə də əlaqəsinin kəsilməsi vəziyyəti bir qədər də ağırlaşdırmış oldu. Dəmir yollarında vəziyyətin bir qədər gərginləşməsi Naxçıvanda iqtisadi problemlərlə yanaşı sosial-psixoloji cəhətdən də bir sıra problemlər yaratmışdı. DQMV-də başverən hadisələr Naxçıvana da təsir göstərmişdi. Bunun nəticəsində Naxçıvan iqtisadiyyatı 1990-cı illərin əvvəllərində iflic vəziyyətə düşmüşdü [Hacıyev, 2016: 24-25].

## NƏQLİYYAT BLOKADASININ TƏSİRİ

Nəqliyyat blokadası kənd təsərrüfatı məhsullarının istehsalında və daşınmasında ciddi problemlər yaratmışdı. Bakıdan Naxçıvana ərzaq və tikinti məhsulları hava yolu ilə gətirilirdi, buda tələbatı ödəməkdə bir qədər çətinlik yaradırdı. Bütün bunların labüd nəticəsi olaraq muxtar respublikada istehsal həcmi sürətlə aşağı düşürdü. Həmin illərdə Naxçıvan MR-də adambaşına düşən mal dövriyyəsi orta respublika göstəricisinin 74,8 faizini təşkil edirdi [Hacıyev, 2016: 90-91].

## HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTƏ GƏLİŞİ VƏ İLKİN TƏDBİRLƏR

Heydər Əliyev 3 sentyabr 1991 ci ildə Ali Məclisin sədri seçildikdən sonra [Səfərli, 2014, s. 16] muxtar respublikanı sosial-iqtisadi böhrandan çıxarmaq üçün ciddi tədbirlər görməyə başladı [Abdalov, 2023: 1]. Heydər Əliyevin müdrük siyasəti nəticəsində Naxçıvan erməni təcavüzündən qurtulmuş və asayiş bərpa edilmişdir [Hacıyev, 2013: 30]. Heydər Əliyevin iştirakı ilə Ali Məclisin sessiyasında muxtar respublikada yaranmış sosial-iqtisadi və ictimai-siyasi vəziyyət ətraflı təhlil edilməyə

başlandı [Hacıyev, 2023: 248]. Muxtar respublikada yaranmış ağır sosial-iqtisadi vəziyyəti qismən də olsa, aradan qaldırmaq üçün yollar axtaran Heydər Əliyev Azərbaycanda ilk dəfə olaraq, Naxçıvanda bazar iqtisadiyyatının mühüm şərti olan özəl mülkiyyətin genişləndirilməsi istiqamətində ilk və zəruri addımlar atmışdı. Bu baxımdan Ali Məclisin 6 aprel 1992-ci il tarixli qərarları xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozları haqqında və Rentabelli işləyən kolxoz və sovxozların mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında Ali Məclisin qərarları müzakirə edildi: *“Zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarında deyilir: “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqında tövsiyələr bəyənilsin”.* Bu tövsiyələr əsasında Rentabelli işləyən kolxoz və sovxozlar ləğv edilərək yerlərinə şəxsi təsərrüfat sahələri yaradıldı [Hacıyev, 2020: 14-15].

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü sayəsində aparılan islahatlar (sovxoz və kolxozlar torpaq islahatları) qısa müddət ərzində müsbət nəticələr verməyə başladı [Hacıyev, 2016: 70-72]. Muxtar respublikada kənd təsərrüfatının inkişafı, əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması üçün əlverişli zəmin yaratdı. Bununla yanaşı iqtisadi münasibətləri tənzimlənməsi mexanizmini tətbiq etməklə əhalinin həyat səviyyəsinin kəskin surətdə aşağı düşməsinin qarşısını ala bildi. Bu islahatlar sadəcə Naxçıvanda deyil, eyni zamanda bütöv Azərbaycanın kənd təsərrüfatının inkişafına zəmin yaratdı [Hacıyev, 2020: 16].

**NƏQLİYYAT İNFRASTRUKTURUNUN BƏRPASI**

1992-ci il martın əvvəllərində Heydər Əliyev muxtar respublikanı nəqliyyat blokadasından çıxarmaq üçün Naxçıvanın hava limanının genişləndirilməsi ilə yaxından məşğul olmuşdur. Nəhayət, Naxçıvanda ağır yüklü sərnişin və nəqliyyat təyyarələrini qəbul etməyə imkan verən yeni aerodromun ilk növbəsi istifadəyə verildi. Heydər Əliyev Hava limanında ilk TU Təyyarəsinin qəbul edilməsi mərasimində, özü iştirak etmişdi [Qasımov, 2013: 171].

Ulu Öndər Heydər Əliyev, blokadanın yaratdığı mürəkkəb problemləri aradan qaldırmaq, muxtar respublikanın həyatı tələbatlarını ödəmək, nəqliyyat və kommunikasiya əlaqələrini bərpa etmək üçün, Heydər Əliyev qonşu Türkiyə və İran dövlətləri ilə münasibətlərin təşəkkül tapmasına və inkişafına çalışırdı [Məmmədov, 2009: 82]. Böyük dövlət xadimi Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinə rəhbərlik etməsi bu diyarın blokadadan qurtarmasına, onun Türkiyə Respublikası ilə beynəlxalq əlaqələrinin yaranmasına və genişlənməsinə imkan verdi. Naxçıvanın həyati tələbatını ödəmək, kommunikasiya əlaqələrini bərpa etmək üçün danışıqlar aparılıb, protokollar imzalandı. Heydər Əliyevin muxtar respublikaya rəhbərlik etdiyi müddətdə qonşu ölkələrlə, xüsusilə Türkiyə dövləti ilə qurduğu xarici əlaqələr bölgəni fəlakətdən xilas etdi [Əliyev, 2023: 71].

1991-ci ildə Heydər Əliyevin iştirakı ilə Naxçıvanla Türkiyə arasında müvəqqəti körpünün açılması muxtar respublikanın dost ölkə ilə əlaqələrinin inkişafında mühüm mərhələ oldu. Körpünün açılması ilə Türkiyənin hökumət nümayəndələrinin, iş adamlarının Naxçıvana səfərləri intensiv xarakter almağa başladı. Türkiyə Respublikasının muxtar respublikaya daxil olan humanitar yardımın artırılması, əhalinin ilkin ehtiyaclarının ödənilməsi üçün böyük töhfə oldu. Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələrinin genişlənməsi ilə əlaqədar 1992-ci ilin fevralın 22-də Heydər Əliyevin fərmanı ilə Dövlət Gömrük Komitəsi yaradıldı. Həmin ilin martında Heydər Əliyev Türkiyə Respublikasının o vaxtkı baş naziri Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə səfərdə oldu. Heydər Əliyev səfər müddətində prezident Turqut Özalla görüşmüş, sonra baş nazir S.Dəmirəl ilə Türkiyə və Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında protokol imzalamışdı. Protokolda Türkiyə Respublikası tərəfindən Naxçıvan MR-a maliyyə, iqtisadi texniki yardım göstərilməsi nəzərdə tutulmuşdu. Muxtar respublikanın müxtəlif sahələrdə tələbatını ödəmək məqsədi ilə Türkiyə hökuməti Naxçıvana 100 milyon dollar məbləğində kredit ayırmağı öhdəsinə götürmüşdü. Bir çox məsələlərdə tarixən öz qardaşlıq köməyini əsirgəməyən Türkiyənin bu dəfəki

qardaş köməyi qarşısında, həm də Bir millət, iki dövlət arasında çox böyük nüfuza malik Heydər Əliyev şəxsiyyəti dayanmışdı. Həmçinin muxtar respublikanın Türkiyə elektrik sisteminə daxil edilməsi, tərəflər arasında dəmiryolu və avtomobil yolu şəbəkəsinin təsis edilməsi üçün davam edən işlərin sürətləndirilməsi, Araz çayı üzərində körpünün tikilməsi, muxtar respublika ilə hava xəttinin yaradılması, kənd təsərrüfatı, bank sistemi, təhsil, turizm sahəsində muxtar respublikaya yardım göstərməyi Türkiyə tərəfi öz üzərinə götürürdü. Heydər Əliyev Türkiyə ilə Naxçıvan arasında bağlanmış bu müqavilənin siyasi, iqtisadi, əhəmiyyətini qeyd edərək demişdir: *"bu müqavilələrin Qars, Moskva müqavilələri kimi tarixə daxil olacağını, gələcək nəsillərin, bütün türk dünyasının bu sənədi də öz tarixində həmişə araşdıracağını və sənədi imzalayanlara daim təşəkkürlərini bildirəcəklərini göstərmişdi".* Doğrudan da Heydər Əliyevin dahiyanəliyi nəticəsində Türkiyə ilə əlaqələrin yaradılması, tərəflər arasında imzalanmış sənədlər, Naxçıvan Muxtar Respublikasının düşdüyü ağır iqtisadi və siyasi böhrandan, nəqliyyat və informasiya blokadasından çıxmasına kömək göstərdi. Heydər Əliyev eyni zamanda Türkiyənin baş naziri Süleyman Dəmirələ bəyan etmişdi ki, əgər Naxçıvanın statusunda hər hansı bir zamanda bir dəyişiklik olarsa, Türkiyə bu məsələdə söz sahibi olacaqdır. Doğrudan da, 1992-ci ilin mayında ermənilər Naxçıvanı işğal etmək üçün hücuma başladıqda Türkiyə hökumətinin Naxçıvanın qarantı olması barədə kəskin bəyanatı düşməni geri çəkilməyə məcbur etdi. Qısa zaman ərzində Türkiyənin Kənd Təsərrüfatı Nazirliyi, Nəqliyyat Nazirliyi, Teletas şirkəti Naxçıvanda iri layihələrin həyata keçirilməsi üçün böyük işlər aparırdılar [Qasımov, 2013: 171-172].

1992-ci ildə iki ölkə arasında türk əsilli tələbələrin mübadiləsini nəzərdə tutan proqram imzalandı. Proqram əsasən azərbaycanlı tələbələr Türkiyənin ali təhsil müəssisəsində təhsil almağa başladılar [Həsanov, 2003: 10].

Humanitar, iqtisadi, mədəni əlaqələrin inkişaf etdirilməsi üçün Heydər Əliyev Türkiyənin bir neçə bölgələrində – Iğdır, Qars, Vanda olmuşdur (eyni zamanda Türkiyə vilayətlərinin başçıları Naxçıvana səfərlər etmişdir). Heydər Əliyevin 1992-ci ilin iyul və avqust aylarında, eləcə də Türkiyəyə sonrakı işgüzar, rəsmi səfərləri zamanı aparılan danışıqlar, imzalanmış sənədlər Naxçıvan-Türkiyə münasibətlərinin inkişafında yeni mərhələ yaratmışdır. Buzaman Türkiyənin Qızıl Ay Cəmiyyəti xətti ilə Naxçıvana humanitar yardım göstərilmişdir [Qasımov, 2013: 173].

1992-ci il mayın 28-də Respublika günündə Araz çayı üzərində Naxçıvan və Türkiyəni birləşdirən körpü (ümid) istifadəyə verildi. Körpünün açılış mərasimində Heydər Əliyev və Türkiyənin baş naziri Süleyman Dəmirəl, Azərbaycan Respublikasının dövlət xadimləri iştirak etdilər. Körpünün açılışı münasibətilə çıxış edən Heydər Əliyev göstərdi ki, "bu körpü bizim ümid və arzularımızın körpüsü və türk dünyasına açılan pəncərədir" [Məmmədov, 2009: 153]. Bu körpünün açılması 70 illik həsrətə son qoymuş oldu [Tarverdiyev, 2019: 6]. Heydər Əliyevin 9 iyul 1992-ci il tarixində imzaladığı qərarla Naxçıvan MR Ali Məclisinin Rəyasət Heyəti Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edildi [Qasımov, 2013: 173]. Qısa müddətdə Iğdır-Naxçıvan elektrik xətti ilə Türkiyənin elektrik şəbəkəsinə qoşulan Naxçıvana 63 meqavat həcmində elektrik enerjisinin nəqlinə başlanıldı [Əliyev, 2023: 72].

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi problemlərinin həllində İran İslam Respublikası ilə əlaqələrin yaradılması da müsbət rol oynadı. Azərbaycanın müstəqilliyinin ilk dövrlərində İİR ilə münasibətlərdə müəyyən soyuqluq olmasına baxmayaraq Heydər Əliyevin müdrik siyasəti nəticəsində, Naxçıvanla İran əlaqələri bərpa edilmişdir. Bu zaman İranla Naxçıvan arasında siyasi, iqtisadi, mədəni əlaqələr inkişaf etməyə başladı. İranın "Hilal Əhmar" xeyriyyə cəmiyyəti, "İmam Xomeyni" fondu və digər təşkilatları Naxçıvana humanitar yardım göstərmiş və bir sıra iqtisadi layihələr həyata keçirmişlərdi. 1992-ci ilin avqustunda Heydər Əliyev İran İslam Respublikasının xarici işlər naziri Ə.Ə.Vilayətinin dəvəti ilə bu ölkəyə səfər etmiş və səfərin yekununda Naxçıvan MR ilə İİR arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında protokollar imzalanmışdı. Bu protokollarda siyasi, iqtisadi, ticarət və mədəni əlaqələr yer almışdı. Protokolların maddələrində İİR-in Naxçıvanda

baş konsulluğunun açılması, ticarət nümayəndəliyinin birgə müəssisələrin təşkili, ticarət qaydalarının yüngülləşdirilməsi, gömrük siyasətinin liberallaşdırılması, mədəniyyət, elm, təhsil, məktəb və s. sahələrdə əlaqələrin genişlənməsi, Naxçıvan MR- 200 milyon kv/saat enerji verilməsi, yük və sərnişin daşınmasının genişləndirilməsi məsələləri müzakirə edilmişdi. Eyni zamanda vətəndaşların keçidi üçün Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında Araz çayı üzərində körpünün açılması, Xoy-Culfa qaz kəmərinin tikintisi, yüklərin avtomobil vasitəsi ilə Culfa-Xudafərin yolu ilə daşınması, eləcə də Naxçıvan MR əhalisinin ərzaq və yanacaq ehtiyaclarını ödəmək üçün İİR tərəfindən müvafiq tədbirlər görülməsi öz əksini tapmışdı. Heydər Əliyevin İİR-in "Bonyade Mostəzəfan və Canbazane Engelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdustla imzaladığı protokola görə fond tərəfindən Naxçıvanda bir neçə iqtisadi və humanitar layihələrin həyata keçirilməsi nəzərdə tutulmuşdu (nəzərdə tutulmuş bütün işlərin maliyyələşdirilməsi bütövlüklə İran tərəfinin üzərinə qoyulmuşdu). 1993-cü ilin martında İİR-in Naxçıvanda baş konsulluğunun açılması, Naxçıvanla İran arasında əlaqələrin daha da genişlənməsinə təsir göstərdi. 24 avqust 1992-ci il tarixli müqavilənin həyata keçirilməsi, Naxçıvanın blokada şəraitində yaşaması ilə əlaqədar yaranmış problemlərin İİR-ı vasitəsilə həll olunması yollarını müzakirə etmişdi [Qasımov, 2013: 173-175].

27 dekabrın 1991-ci ildə ABŞ-ın Moskvadakı səfirliyinin əməkdaşları G.Breyter və Obri A.Karlson Naxçıvanda Heydər Əliyevlə görüşmüş, bundan sonra, 1991-ci ilin ABŞ-ın Azərbaycanda ilk səfiri R.Finn, və onu əvəz etmiş R.Mayls da Ali Məclisin sədri ilə görüşmüşdür. Heydər Əliyev həmçinin Böyük Britaniyanın Azərbaycandakı səfiri H.Fomston Fransanın səfiri J.Perre, BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud Əl-Səid və digər xarici nümayəndələrlə görüşündə onların diqqətini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə, qonşu dövlətin blokadaya saldığı Naxçıvanın ağır vəziyyətinə cəlb edirdi. İri dövlətləri Ermənistan-Azərbaycan münaqişəsində obyektiv mövqe tutmağa çağırırdı. Bill Klintonu ABŞ-ın prezidenti seçilməsi münasibətilə təbrik edən Heydər Əliyev 1993-cü ildə ona məktubla müraciət edərək Naxçıvanın Ermənistan tərəfindən iqtisadi blokadaya alması muxtar respublikada ağır iqtisadi vəziyyət yarandığını onun nəzərinə çatdırmış və ABŞ prezidentindən Naxçıvan MR-a humanitar yardım göstərilməsini xahiş etmişdi (Diplomatik subordinasiyaya əməl edərək). B.Klinton Heydər Əliyevin bu məktubu cavabsız qoymamış. Naxçıvana təcili yardım göstərmək barədə qərar qəbul etmişdir [Qasımov, 2013: 177]. ABŞ Dövlət Departamentinin nümayəndəsi Robert Puli 1993-cü ildə Ermənistanın işğalı nəticəsində Naxçıvanın düşdüyü vəziyyəti öyrənmək və regiona yardım proqramı hazırlamaq üçün Naxçıvana gəlmiş Heydər Əliyevlə görüşmüşdür. ABŞ konqresinin 907-ci düzəlişinə görə Azərbaycana yardım göstərilməsinə məhdudiyyət qoyulduğundan yardımın qeyri-hökumət təşkilatlarının xətti ilə göndərilməsi nəzərdə tutulurdu. Bir müddət keçdikdən sonra Amerika Beynəlxalq Yardım və inkişaf Agentliyinin – ADBİNTİN direktorunun sağlamlıq məsələləri üzrə baş müşaviri, C.Vaythauz və həmin agentliyin Avropa-Asiya bölməsinin direktoru P.Kulakov Naxçıvana yardım göstərilməsi imkanlarını öyrənmək üçün muxtar respublikaya gəlmiş və Ali Məclisin sədrilə görüşmüşlər. ABŞ-ın Naxçıvana humanitar yardım göstərməsinin bölgə əhalisinin sosial ehtiyaclarının aradan qaldırılmasına müəyyən köməkliyi ilə bərabər həm də böyük siyasi əhəmiyyəti var idi. 1993-cü il martın 8-də Heydər Əliyevlə görüşən BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarlığı Azərbaycandakı nümayəndəliyinin proqramlaşdırılma məsələləri üzrə rəhbər Lois Rovira naxçıvanlı qaçqınlara yardım göstəriləcəyi barədə məlumat vermişdi. Ümummilli lider Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Fransa və Böyük Britaniya Naxçıvana yardım etmək üçün mühüm qərarlar qəbul etmişdilər [Qasımov, 2013: 177-178].

## NƏTİCƏ

Ermənilər tərəfindən Azərbaycanın tarixi torpaqlarının işğal edilməsi nəticəsində Naxçıvanda da sosial-iqtisadi vəziyyət xeyli mürəkkəbləşmişdi. Nəqliyyat blokadasının yaratdığı obyektiv çətinliklər Naxçıvanda kənd təsərrüfatı ilə birlikdə tikinti və sənaye sahəsində də işlərin dayanmasına

gətirib çıxarmışdı. 3 sentyabr 1991-ci ildə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra muxtar respublikanı blokadadan çıxarmaq üçün bır sıra tədbirlər görmüşdür. Naxçıvanda sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün önəmli addımlar atmağa başlamışdır. İlk növbədə muxtar respublikada sabitliyi təmin etdikdən sonra Muxtar respublikanı blokadadan çıxarmaq üçün Türkiyə və İranla münasibətlər quruldu. Bu zaman Türkiyə və İrana səfər edən Ulu Öndər Heydər Əliyev diplomatik münasibətlər qurmuş, ticarət əlaqələrini genişləndirmişdir. Türkiyənin Qızıl Ay Cəmiyyəti xətti ilə Naxçıvana humanitar yardım göstərilmişdir. Iğdır-Naxçıvan elektrik xətti ilə Türkiyənin elektrik şəbəkəsinə qoşulan Naxçıvana 63 meqavat həcmində elektrik enerjisinin nəqlinə başlanıldı. Heydər Əliyev müdrik siyasətilə, Naxçıvanla İran əlaqələrini bərpa etmişdi. Bu zaman İranla Naxçıvan arasında siyasi, iqtisadi, mədəni əlaqələr inkişaf etməyə başladı. İranın "Hilal Əhmar" xeyriyyə cəmiyyəti, "İmam Xomeyni" fondu və digər təşkilatları Naxçıvana humanitar yardım göstərmiş və bir sıra iqtisad layihələr həyata keçirmişlərdi. Eyni zamanda Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvanın düşdüyü çətinliyə görə ABŞ, Böyük Britaniya və Fransa dövlətləridə Naxçıvana yardım etmək üçün mühüm qərarlar qəbul etmişlər. Ulu Öndər Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Naxçıvanda sosial-iqtisadi vəziyyət inkişaf etməyə başlamışdı.

## ƏDƏBİYYAT

Abdalov, N. (2023, 3 sentyabr). Xilaskarlıq missiyasının başlanğıcı: 1991-ci il sentyabrın 3-də ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir. *Respublika*, (189), 3.

Əliyev, S. (2023). Heydər Əliyev dövründə Azərbaycan-Türkiyə münasibətləri. *Heydər Əliyev və milli dövlətçilik məsələləri* [Respublika elmi konfransının materialları]. Naxçıvan Universiteti.

Hacıyev, İ. (2013). *Heydər Əliyev siyasəti: Tarixdə və günümüzdə* (Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illiyinə). Əcəmi.

Hacıyev, İ. (2016). *Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında*. Elm və Təhsil.

Hacıyev, İ. (2020). *Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı (1995-2019-cu illər)*. Əcəmi.

Hacıyev, İ. (2023). *Heydər Əliyev siyasəti: Tarixdə və müasirlik*. Elm.

Həsanov, İ. (2003). *Haydar Aliyev döneminde Azerbaycanın dış politikası* [Yüksek lisans tezi, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü].

Qasımov, Ə. (2013). *Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003)*. Turxan.

Məmmədov, M. (2009). *Siyasətdə Naxçıvan dərsləri*. Araz.

Naxçıvan MR Ali Məclisi. (2019). *Naxçıvan Muxtar Respublikası – 95*. Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi.

Tarverdiyev S. (Red.). (2019). *Naxçıvan-Türkiyə diplomatik əlaqələri yeni müstəvidə* [Beynəlxalq elmi konfransının materialları]. Qeyrət.

Səfərli, F. (2014). *Heydər Əliyev irsi – əbədi yaşar təlim*. Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi.

*(Tarix elmləri doktoru Emin Şıxəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 15.05.2026**
**Son variant 12.06.2026**